Sülh və əməkdaşlıq dövrü:

Yaşıl dünya

Bakı COP29-la qlobal təcrübələrin paylaşıldığı ideal məkan olduğunu bir daha təsdiq etdi

Prezident İlham Əliyev hər zaman dünya ictimaiyyətinin diqqətinə reallıqları olduğu kimi çatdıran Liderdir. Onun çox maraqla, daim səbirlə gözlədiyimiz və artıq ənənə halına çevrilən müsahibələri hər birimiz üçün çox qürurludur. Yanvarın 7-də yerli televiziya kanallarına müsahibədə dövlətimizin başçısı jurnalistlərin iqtisadi, sosial sahələrdə görülən işlərə, Azərbaycan ilə Ermənistan arasındakı münasibətlərə, işğaldan azad edilmiş ərazilərdə aparılan yenidənqurma, qayıdış, həmçinin ölkəmizin xarici siyasətinə və digər məsələlərə dair suallarını cavablandırıb.

(davamı 5-ci səhifədə)

Sülh və əməkdaşlıq dövrü: Yaşıl dünya

Bakı COP29-la qlobal təcrübələrin paylaşıldığı ideal məkan olduğunu bir daha təsdiq etdi

(əvvəli 1-ci səhifədə)

Dövlət başçısı xüsusi qeyd edib ki, bu gün ölkə qarşısında yeni dövrün vəzifələri dayanır. Biz əsas vəzifəni bir neçə il əvvəl həll etmişik, ölkəmizin suverenliyini tam bərpa etmişik və sentyabr hadisələri, əlbəttə ki, ümumi kontekstdən çıxarıla bilməz. Yəni sentyabra qədər getdiyimiz yol məqsədyönlü yol idi, məqsədə hesablanmış yol idi, düzgün yol idi. İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyinəzərindən bu hadisə bütün işlərimizin, elə bil ki, son nidası idi. Artıq Azərbaycan xalqı və bütün dünya azərbaycanlıları bu gün sevinc hissləri keçirir, o cümlədən mən də.

Azərbaycan dövləti hər zaman sülhə və etibarlı əməkdaşlığa yüksək qiymət vermişdir. Vətən müharibəsindən ötən dövrdə qalib ölkə kimi sülhün həyata keçirilməsi bizim təşəbbüsümüz olmuşdur. Prezident bildirib ki, bütün bunlarla yanaşı, Ermənistanın silahlanması, sadəcə olaraq, yeni gərginliyə gətirib çıxaracaq. Biz bunu istəmirik. Biz sülh istəyirik. Biz istəyirik ki, artıq müharibə səhifəsi bağlansın. Ancaq görürük ki, Ermənistanın həm özü, həm onun yeni havadarları bunu istəmirlər. Onlar revanşist fikirlərlə yaşayırlar və Ermənistan faktiki olaraq bölgə üçün böyük təhdid yaradır. Birinci Qarabağ müharibəsində olduğu kimi, 44 günlük Vətən müharibəsində də Ermənistan silahlı qüvvələri bəşəri dəyərləri tapdadı, müharibə cinayətləri törətdi. İstər həmin dövrdə, istərsə də postmüharibə dövründə Azərbaycan mövcud həqiqətlərin, erməni vandallığının dünya ictimaiyyətinə çatdırılması istiqamətində işləri davam etdirdi. İllərdir davam edən təbliğat işləri daha da gücləndirildi. Dünya ictimaiyyəti ermənilərin iç üzünü, törətdikləri vəhşilikləri görməyə başladı. Bu gün də regionda nüfuzu artan, dünyanın aparıcı dövlətləri tərəfindən dəstəklənən Azərbaycan Ermənistanın müharibə cinayətləri ilə bağlı beynəlxalq ictimaiyyəti məlumatlandırmaq üçün çox güclü iş aparır. Ona görə də inanırıq ki, Ermənistanın bu cinayətləri cavabsız qalmayacaq. İndi heç kimə sirr deyil ki, yeni dünya nizamı formalaşdırılır. Bu prosesin fəal iştirakçısı olmalıyıq. Sadəcə olaraq, burada yeni nizamın necə olacağını gözləməməliyik, öz işimizi görməliyik və gündəliyimizi bundan sonra da tətbiq etməliyik. Çünki Cənubi Qafqaz bizim regionumuzdur.

Prezidentin müsahibədə bu yaxınlarda ölkəmizdə keçirilən, beynəlxalq səviyyədə ilin ən mühüm tədbirlərindən biri olan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı ilə (COP29) bağlı cavabını vurğulamaq lazımdır. Təbii ki, COP29 ölkəmizin beynəlxalq aləmdə ki nüfuzunun parlaq bir göstəricisi, uğurlu addımı idi. Ölkəmizin təqdimatı bizim üçün mühüm amil idi. Bu tədbirdə 197 ölkədən 76 min iştirakçı qeydiyyatdan keçmişdi. Regionumuzda son vaxtlarda hələ buna bənzər, bu qədər sayda qonağın iştirak etdiyi ikinci belə mühüm tədbir keçirilməmişdi.

Rəsmi Bakı ev sahibi qismində qarşıya qoyulan məqsədlərə nail olmuş, COP29-un hədəflərinə çatması üçün gərgin iş aparmışdır. Dünyanın ən müxtəlif qurumları, qeyri-hökumət təşkilatları, beynəlxalq institutları ilə qarşılıqlı müzakirələr, dialoq yolu ilə hədəfə istiqamətlənən yoldakı maneələr uğurla aradan qaldırılmışdır. Bakıda dünyanın maraq dairəsində olan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ilə bağlı mütəmadi tədbirlər, görüşlər keçirildi. Bu cür beynəlxalq tədbirə ev sahibliyi etmək son dərəcədə məsuliyyətli və çətin bir iş idi, Azərbaycan da həmişəki kimi bu işin öhdəsindən layiqincə gəldi.

Ümumiyyətlə, iqlim dəyişmələri ətraf mühiti, həm də insan hüquqlarını təhlükə altına almaqla, qlobal miqyasda geniş təsir göstərən ciddi problemdir. İqlim böhranı həyatımızın hər bir aspektinə təsir göstərərək yaşayış hüququndan sağlamlıq və qida, təmiz suya çıxışdan sığınacaq hüququna qədər müxtəlif fundamental hüquqları risk altına alır. Xüsusilə həssas qruplar üçün bu təsirlər daha dramatikdir. Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası iqlim dəyişmələri ilə mübarizənin sosial ədalət və insan hüquqları ilə necə sıx bağlı olduğunu bir daha göstərdi. COP29-a ev sahibliyi edən Azərbaycanın bütün təşəbbüsləri eşidildi, perspektivlər nəzərdən keçirildi və inklüziv nəticələr təmin edildi. Birgə səylərin səfərbər olunduğu inklüziv mühitin yaradılmasına sadiqlik nümayiş etdirdi. 2024-cü ildə Bakıda keçirilən COP29 konfransı Azərbaycanın iqlim siyasətinin və qlobal səylərinin təqdim edilməsi baxımından çox mühüm tədbir oldu. Konfransda Azərbaycan Prezidenti İlham Əliyev iqlim dəyişikliyinin qlobal miqyasda artan təhdidlərinə qarşı ölkənin apardığı mübarizəni təqdim etdi və bu sahədə beynəlxalq əməkdaşlığı daha da gücləndirmək üçün çağırışlar səsləndi. Bu çağırışlar Azərbaycanın dünya miqyasında iqlim dəyişikliyi məsələlərinə verdiyi önəmin bir göstəricisidir.

Azərbaycanın belə bir mötəbər tədbirə ev sahibliyi etməsi ölkəyə yerli, regional və beynəlxalq miqyasda çox böyük dividendlər qazandırdı. Bu tədbir müstəqil siyasət yürüdən ölkəmiz üçün çox əhəmiyyətli idi. Ona görə də strateji əhəmiyyət daşıyan tədbir hesab olunur. Xarici ekspert və analitiklərin də qənaətlərinə görə, Azərbaycanın ev sahibliyi etdiyi COP29 əvvəlki iqlim konfranslarından fərqli olaraq köklü yanaşma nümayiş etdirib. Əgər əvvəlki konfranslarda inkişaf etməkdə olan ölkələrə iqlim dəyişmələri ilə düzgün mübarizə aparmaq yolları öyrədilir və bu sahədə tövsiyələr verilirdisə, Azərbaycan COP29-da kifayət qədər cəsarətli yanaşma nümayiş etdirdi.

Ölkəmiz iqlim dəyişmələri ilə bağlı BMT-nin çağırışlarına fəal qoşulan ölkələr sırasında yer alır. Uğurlu bir nəticə olaraq iqlim dəyişmələrinin zərərlərini azaltmaq üçün ölkələrlə daha əhatəli və dayanıqlı adaptasiya strategiyalarını inkişaf etdirmək mümkündür. Bu baxımdan, cənab Prezidentin dediyi kimi, ölkəmiz üçün COP29 böyük bir çağırış və böyük imkan idi: "Bizim vəzifəmiz bu çağırışı uğura çevirməkdən ibarət idi. Azərbaycan istixana qazlarının emissiyası baxımından o qədər də böyük paya sahib deyil və bu işdə dünyanın bir araya gəlməsində mühüm rol oynaya bilməz. Lakin hesab etdik ki, beynəlxalq təşkilatlarda fəaliyyət təcrübəsi və şaxələndirilmiş xarici siyasət bizə körpülər qurmaqda yardımçı olacaq. Yəni biz hazırlıq işlərinə başladıq və Qlobal Cənub çərçivəsində olduqca fəal iş apardıq". Təxminən 200 ölkəni bir araya gətirən bu tədbir qlobal iqlim maliyyələşdirilməsi sistemində əsaslı dəyişikliklərə səbəb olacaq tarixi qərarlarla yadda qaldı. Bakı Zirvə toplantısı həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrin iqlim dəyişmələri ilə mübarizəyə baxışı üzrə iki fərqli yanaşmanı ortaq məxrəcə gətirə bilib. Bu müstəvidə Azərbaycan hər iki tərəflə münasibətlərində effektiv balanslı mövqe nümayiş etdirə bilib ki, bu da qəbul olunmuş qərarlarda özünü göstərir. Bu Azərbaycan diplomatiyasının çox ciddi qələbəsidir.

Azərbaycanın COP29 Sədrliyi inkişaf etməkdə olan ölkələrə hər il 1,3 trilyon dollar məbləğində iqlim maliyyələşdirilməsi yönəltməyi nəzərdə tutan Bakı Maliyyə Məqsədinin (BMG) qəbul edildiyini elan etdi. Bu məqsəd çərçivəsində inkişaf etməkdə olan ölkələr üçün iqlim maliyyələşdirməsini üç dəfə artırmaq, 2035-ci ilə qədər iqlim danışıqları çərçivəsində razılaşdırılmış əvvəlki 100 milyard ABŞ dolları hədəfinin artımını ildə 300 milyard ABŞ dollarına çatdırmaq barədə tarixi qərar əldə olundu. COP29 zamanı BMT-nin yüksək səviyyəli karbon bazarlarına dair 10 il davam edən Paris Sazişinin 6-cı maddəsinin müzakirələri də uğurla başa çatdırıldı. Bu bazarlardan gözlənilən maliyyə axınlarının 2050-ci ilə qədər illik 1 trilyon dollara çatacağı proqnozlaşdırılır. Bundan əlavə, COP29 Sədrliyi uzun zamandır ki, gözlənilən İtki və Zərər Fondunun yaradılması üzrə mühüm qərar qəbul etdi. Fondun 2025-ci ildən etibarən vəsaitlərin paylanmasına hazır olacağı bildirildi. Bu qərar, xüsusilə kiçik ada dövlətləri və az inkişaf etmiş ölkələr də daxil olmaqla, inkişaf etməkdə olan ölkələr üçün böyük əhəmiyyət kəsb edir.

Mövqe ondan ibarət idi ki, ətraf mühitlə bağlı məsələlərin müzakirəsi artıq inkişaf etməkdə olan ölkələrin xeyrinə resursların yenidən bölüşdürülməsi üçün effektiv modellər hazırlamağa yönəlməlidir. Azərbaycan bu mövqeyi açıq şəkildə ifadə edə bildi: zəngin dövlətlər iqlim dəyişmələri ilə mübarizədə yoxsullara kömək etməlidir. Əldə olunmuş razılaşmalar və qərarlar onun göstəricisidir ki, COP29-a ev sahibliyi Azərbaycana bütün dünyada təşəbbüskar, gənc və dinamik inkişaf edən bir dövlət imici qazandırıb. Bu isə Azərbaycanın Cənubi Qafqazda şəksiz lider mövqeyini göstərən mühüm faktordur. Rəsmi Bakı, əslində COP29-da sədrliyi dövründə nəinki bu möhtəşəm tədbirin episentri, həm də bütün dünyanın paytaxtına çevrildi. COP tədbirlərində istifadə olunacaq daha bir miras hazırkı, keçmiş və gələcək COP-a ev sahibliyi edən ölkələr arasında "Troyka" mexanizmidir. Bu bir sinerji yaradır, çünki BƏƏ-də əldə edilmiş uğur üzərində uğur qazandıq. Onların təcrübəsindən istifadə etdik və bu il Braziliyada keçiriləcək COP zamanı orada BƏƏ və Azərbaycanın əldə etdiyi uğura uğur əlavə olunacaq.

Şərq-Qərb nəqliyyat dəhlizi üzərində yerləşən Azərbaycan da öz coğrafi mövqeyinin verdiyi üstünlüklərdən faydalanaraq əməkdaşlıq etmiş ölkələrin hər biri üçün məqbul olacaq təkliflər vermişdir. Həmçinin regionun və özünün karbohidrogen məhsullarının Avropa bazarına çıxarılması imkanlarını genişləndirir. Bununla belə, ölkəmizin alternativ enerji potensialı da yüksək dəyərləndirilir. Beynəlxalq tədbirlərə ev sahibliyi etmək sahəsində zəngin təcrübəyə malik Azərbaycan buna görə də COP-un rahat və yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi hazırlıqları qısa vaxt olmasına baxmayaraq, tamamladı. "Yaşıl dünya naminə həmrəylik" şüarını rəhbər tutan ölkəmiz bitərəf vasitəçi kimi çıxış edərək danışıqların qərəzsiz aparılması üçün bütün imkanları yaratdı. Proses boyu inkişaf etməkdə olan ölkələrin, xüsusilə kiçik ada dövlətlərinin və ən az inkişaf etmiş dövlətlərin ehtiyaclarını nəzərə alan nəticə əldə etməyə çağırış etdik, çünki onlar iqlim dəyişmələrinin ağır yükünü daşıyırlar və ekzistensial təhlükə ilə üzləşirlər. Həmçinin müstəmləkə idarəçiliyi ilə daha da ağırlaşan ekoloji problemlərdən əziyyət çəkən xalqlar və regionlar ilə həmrəylik nümayiş etdirdik. Azərbaycan inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında körpülərin qurulması üçün səylərini əsirgəmədi və bunun nəticəsində dünya tarixi Bakı nailiyyətinə şahidlik etdi. Beləliklə, Azərbaycanın təşkil etdiyi COP29 iqlim konfransı ətraf mühitin qorunması üzrə qlobal səylərdə mühüm mərhələ oldu.

Mustafa KAMAL,
"Respublika".